

■ Səhər Xiyavi
(1968)

1968-ci ildə Ərdəbil yaxınlığındakı Xiyav (Meşkinşəhr) şəhərində anadan olmuşdur. İlk və orta məktəbi Xiyavda oxumuş, daha sonra dil və ədəbiyyat üzrə ali təhsil almışdır. Azərbaycan və fars dillərində yazıb-yaradır. "... Və qadın danışır" adlı kitabında sərbəst, "Ağrılarım özgə deyil" kitabında isə klassik şeirləri toplanmışdır.

# KORONA

*(qəzəl)*

Bu nə "yaz"dır, aman Allah, elimi qəm bürüyüb,
Gülməyir heç kim, hamı aləmi matəm bürüyüb.

Fərq qoymur, nə kasıbdır, nə də ki, varlıdı bu,
Çərçinin meyvəsitək hamını dərhəm* bürüyüb.

Kəsilibdir küçəmizdən elimin hay-harayı,
Nə olub, bəlkə, dumanlıqdı bura, çən bürüyüb?!

Boğanaqdır burası? Hamı niyə maskalıdır?
Yeri yerdə, göyü göydə, havanı səm** bürüyüb.

At çapır qəm sinəmizdə belə ki, çaqqa-çuruq,
Bu, cəhənnəm atıdır, milləti dördəm bürüyüb.

Saldı deprəm, elə ki, əydi bütün arzuları,
Nə bəladır, görəsən, xəlqi naköndəm*** bürüyüb.

Görsədir qanlı dişin, hey aparır Şəngülümü,
Görəsən, fəth elədi aləmi yam-yam bürüyüb?

Baxıram, amma həyətdə vecinə almayıban,
Gülləyib bağça-bağım, hər yanı yöndəm bürüyüb.

Qəm yemə, bir-iki günlük xəzələ qol-boyunuq,
Yaramız güllənəcək gör necə məlhəm bürüyüb.

*dərhəm - qarışıqlıq
**səm - zəhər
***naköndəm - yöndəmsiz, səliqəsiz

Kaspi 2020.- 25-27 aprel.- S.11.